# Gürcüstanda “Eternity-2021” təlimi başlayıb



Tbilisidə Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə “Eternity-2021” kompüter dəstəkli komanda-qərargah təlimi başlayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, nəzəri və praktiki hissədən ibarət təlimdə üç ölkənin hərbi qulluqçuları və aidiyyəti dövlət qurumlarının nümayəndələri regional iqtisadi layihələrin mühafizəsinin təşkili üzrə tapşırıqları icra edəcəklər.

Təlimə oktyabrın 8-də yekun vurulacaq.

Azərbaycan. - 2021.-5 oktyabr.- S.6.